# Ötən il Azərbaycan üzərindən yüklərin daşınmasında rekord göstərici qeydə alınıb

## Zəngəzur dəhlizinin (TRIPP) açılması ilə daha yüksək göstəricilərin əldə edilməsinə imkan yaranacaq

**Dəfələrlə təkrar olunduğu kimi, Azərbaycan dünyanın mühüm ticarət marşrutlarından olan Orta dəhlizdə açar ölkə statusundadır. Dünya ticarətinin önəmli marşrutunun partnyorlar üçün cəlbedici və səmərəli olmasında ölkəmiz aktiv rol oynayır. Xüsusən marşrutun rəqəmsallaşdırılması və vahid tarifin tətbiqi üçün Azərbaycanın tərəfdaşları ilə apardığı danışıqlar və qəbul etdiyi qərarlar dəhliz üzrə yükdaşımaların həcminin sürətlə artmasını təmin edir.**

Ötən il Orta dəhlizlə Azərbaycan üzərindən aşırılan yüklərin həcmində 2024-cü illə müqayisədə yüksək artım qeydə alınıb. AZCON Holding şirkətlərindən biri olan "Azərbaycan Dəmir Yolları" QSC (ADY) tərəfindən Bakı Beynəlxalq Dəniz Limanında ötən il 100 min TEU konteynerdən çox yük aşırılaraq limanın tarixində rekord göstəriciyə imza atılıb. ADY-dən verilən məlumata görə, 2024-cü illə müqayisədə limanın quruma inteqrasiya edildiyi 2025-ci ildə müvafiq göstəricidə 40 faizə yaxın artım olub.

Ötən il həmçinin Qazaxıstanın "KazMunayQaz" milli şirkətinin (KMQ) törəməsi "Kazmortransflot" Aktau-Bakı-Aktau fider xətti üzrə 20 futluq ekvivalentdə (TEU) 59,4 min konteyner daşınıb. Məlumata görə, daşımaların həcmi 2024-cü illə müqayisədə 15 faizdən çox (51,4 min TEU) artıb. Müsbət dinamika Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta dəhliz) üzrə daşımalarına tələbin artması ilə şərtlənir.

Ölkəmiz üzərindən daşımaların həcminin ardıcıl şəkildə artması tərəfdaşımız olan "Kazmortransflot" şirkətinin etibarlı dəniz logistikasını təmin etməsi, ixrac-tranzit marşrutlarını şaxələndirməsi və Asiya ilə Avropa arasında multimodal daşımaların inkişafında önəmli rol oynayır.

"Azərbaycan Dəmir Yolları" QSC 2025-ci ildə 392 blok-qatar, o cümlədən 137 tranzit qatar qəbul edib ki, bu da 2024-cü ilin göstəricisi (287 blok-qatar) ilə müqayisədə 37 faiz artım deməkdir. Ötən il ümumilikdə 135300 TEU konteyner yük daşınıb. Bu isə 2024-cü ilin göstəricisindən (114000 TEU) təxminən 19 faiz çoxdur.

Söz düşmüşkən onu da bildirək ki, Azərbaycan ərazisində Orta dəhlizin inşası ilə bağlı əsas hissələrdən biri olan Horadiz-Ağbənd layihəsi artıq 69 faiz icra edilib, avtomobil yolunun icrası isə 95 faizə çatıb. Hər iki yolun bu ilin sonunadək tam istifadəyə verilməsi planlaşdırılıb. Eyni zamanda Naxçıvan Muxtar Respublikasında da nəqliyyat infrastrukturunun modern dəstək edilməsi işlərinə başlanılıb. Xatırladaq ki, Qars-Naxçıvan arasında və Türkiyə ərazisində başlanan işlər, o cümlədən dəmir yolunun inşası Zəngəzur dəhlizinin (TRIPP) imkanlarının tam gücü ilə istifadəsinə şərait yaradacaq.

Ermənistanda da bu məsələyə ciddi yanaşılır və müvafiq addımlar atılır. Xəbər verildiyi kimi, bu günlər Ermənistanla ABŞ arasında Tramp yolu (TRIPP) layihəsinin icrası barədə iki ölkə arasında sənəd imzalanıb. Artıq Ermənistan və Azərbaycan arasında birgə iş görmək üçün mütəxəssislər səviyyəsində görüşlər təşkil olunur. Xəbər verildiyi kimi, yanvarın 15-də Azərbaycan və Ermənistan nümayəndələri tərəfindən Sədərək-Yerasx dəmir yolu sahəsinin cari vəziyyətinə birgə baxış keçirilib. Baxışın məqsədi müvafiq infrastrukturun bərpası tədbirlərinin yerinə yetirilməsi məqsədilə xüsusi dəmir yolu tikintisi texnikasının hərəkəti üçün həmin dəmir yolu sahəsinin texniki cəhətdən yararlığının qiymətləndirilməsi olub. Tərəflər keçirilən baxış çərçivəsində həmin sahədə dəmir yolu infrastrukturunun texniki vəziyyətinin qiymətləndirilməsi məsələləri üzrə fikir mübadiləsi aparıblar.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

Azərbaycan.- 2026.- 17 yanvar (№ 10).- S.12.